# ŞAİR SÖZÜ YALAN DEYİL

## *Şair Rafiq Musanın "Axtarıram özümü" poeması üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Mənim də redaksiya heyətinin üzvü olduğum "Kredo" qəzeti mənəvi mühitimizin inkişafında xüsusi yeri olan mətbuat orqanıdır. Vaxtilə, XIX əsrdə Həsən bəy Zərdabi "Əkinçi" qəzeti ilə cəmiyyətin düşüncəsinə maarifçilik toxumu əkirdi. Bu gün "Kredo" qəzeti cəmiyyətin mənəvi yüksəlişi naminə çox böyük cəfalara sinə gərir. Hər bir məhrumiyyətlərə baxmayaraq baş redaktor Əli Rza Xələflinin səyi və inadı sayəsində bu günə qədər nəşr olunub və cəmiyyətimizdə ictimai rəyə təsir göstərmək gücündə olan mətbuat orqanı kimi dəyərləndirilə bilir. Amma mən bu qəzetin ictimai-siyasi fəaliyyətindən daha çox ictimai-ədəbi fəaliyyətinin gücünü görürəm. Sözün həqiqi mənasında özünü ifadə etmək istedadında olan müəllifləri baş redaktor kəşfiyyatçı ustalığı ilə axtara bilir, onları tapır, ədəbi portretləri haqqında yazılar verir, yaradıcılıqlarını təhlillə diqqətə çəkir.

Elə müəlliflər var ki, biz uzun müddət onları tanıya bilməmişik. Bunun da günahı, əlbəttə, əsasən müəlliflərin özləri ilə bağlıdır. Amma ədəbi orqanlar da istedadlı müəllifləri zaman-zaman aramalı, axtarmalı, hətta özlərinin təşəbbüsləri olmasa belə, ədəbi mühitə təqdim etməli idilər.

Haqqında söhbət açdığım müəlliflərdən Rafiq Musa haqqında kifayət qədər geniş məlumat vermişəm. Sadəcə, bu qeydlərimdə bəzi məqamlara təzədən toxunuram. Onun "Kredo" qəzetində oxuduğum yazılarına münasibətimi qəzetin baş redaktoru Əli Rza Xələfliyə bildirəndə sanki xüsusi hazırlığa malik bir hisslə cavab verdi: "Bəli, R.Musa çox istedadlı şairdir. O, həyatı ustalıqla poeziyaya yaxınlaşdırmaq gücündə olan sənətkardır. Özü də onun ədəbi səriştəsinə, poetik təcrübəsinə söz ola bilməz. Adam inana bilmir ki, bu müəllif necə indiyə qədər daldalıqda qalıb. Doğrudur, kitabları çap olunur, müxtəlif poetik janrlarda qələmə aldığı mövzuların mükəmməlliyinə söz ola bilməz. Lirik-epik poemaları, lirik şeirləri, xüsusilə, təmsilləri 70-80-ci illər poetik ənənələrinin ən yaxşı davamçılarından biri olduğuna şahidlik edir.

Rafiq Musada yurd ağrıları (Qərbi Azərbaycan, Güllübulaq kəndi), yaddaş ağrıları cəmiyyəti, həyatı başa düşərək insani hisslərin daşıya biləcək ağrıları sözün həqiqi mənasında sənətkarlıqla onun yaradıcılığında öz əksini tapır. Əlbəttə, dəyərli, ədəbi, poetik nümunələrlə. Bilirəm, zaman gələcək R.Musanın təmsilləri ayrıca tədqiqat mövzusu olacaq. Və bunun üçün onun ayrıca çap olunmuş təmsillər kitabı ən yaxşı mənbədir.

Son vaxtlar "Axtarıram özümü", "Yolum dağlara düşdü" kimi lirik-miniatür poemaları onun bu gün də xüsusi coşqu ilə yazıb-yaratmağına sübutdur. Mən çox istərdim ki, R.Musanı mükəmməl bir şair kimi, əlbəttə, yaradıcılığında təsdiq olunan bir ustad kimi ədəbi mühitimiz bütün əhatəliliyilə görə bilsin". Mən Xələflinin bu sözlərinə nə isə əlavə etmək fikrində deyiləm. Amma onun tərcümeyi-hal yönümlü, yəni varlığı ilə bağlı "Axtarıram özümü" qələmə aldığı aftobioqrafik miniatür poeması ona görə dəyərlidir ki, biz ötüb keçmiş həyatımızı bitmiş hesab etməyək. Bizdən ötüb getmiş həyat əslində, günümüzdə davam edir. Təcrübə kimi, örnək kimi davam edir. R.Musanın sətirlərində diqqətli oxucu öz həyatı ilə bağlı maraqlı hisslərlə, duyğu görüntüləri ilə tanış ola bilər: *"Yaşayarıq bir təhər, Hər ağızda bir avaz. Azımdan qalıbdır çox, Çoxumdan qalıbdır az. Hər bir işə bir maraq, Hər marağa səbəb var. Zirvəyə qalxmaq üçün Məni çəkir dolaylar. Alovumdan xəbər yox, İçimdə közü qalıb. Şirin xatirələrdə Gəncliyin izi qalıb Yazdığım şeirlərdə Xəyallarım ağ alçim, Yel apardı, dağ aşdı. Axtarmağın yeri yox, Buludlara qarışdı. Üstümə doğdu günəş, Mən də nura boyandım. Dünya necə gözəlmiş?! Pişvazına dayandım. Çiçəklərin naxışı Xalısıdır baharın. Sevib-sevilənlərin Ünvanını axtarın Yazdığım şeirlərdə. Adam gördüm, heç nəyə Biganə qala bilmir. Haqlı gördüm, haqqını Hələ də ala bilmir. Haqsızlığı görəndə Mən demişəm sözümü. Haqq sözüm acı gəldi, Üfürdülər közümü. Təpələrin öz yeri, Zirvələrdə qar olar. İstəyinə yetişər Haqlı hər vaxt var olar Yazdığım şeirlərdə. Ürəyi tox adamlar Adamların xasıdı. Özgələrdə nə işi, İşinin ağasıdı. Sabahının yiyəsi Hər kəsin öz ağlıdı. Zəhmətsevər adamlar Öz işinə bağlıdı. Sözümün kəsəri cox, Daş ürək muma dönər. Həmrəylik olan yerdə Dağlar da şuma dönər Yazdığım şeirlərdə"*. Hər misra həyatın bir günüdür. Və hər günün arxasında nəinki bir il, bəlkə, illər dayanır. Mən bilirəm ki, R.Musanın bu poemasını oxuyan hər kəs həmin misraların özü ilə birgə o keçmişi təzədən yaşayır. Nə dəxli var, müəllif şair ömrü yaşayır, oxucu lap traktorçu, müəllim ömrü də yaşaya bilər, əgər belə demək mümkünsə, mənim kimi poliqrafçı ömrü də yaşaya bilər.

Mənim oxucularım yaxşı bilir, mən poliqrafçıyam, çapçıyam. Amma çapçı olaraq qalmamışam. Çap etdiyim kitabların özü məni sözə gətirib, ədəbiyyata gətirib, sözə dəyər verməyə gətirib. Bu mənada, R.Musanın "Axtarıram özümü" avtobioqrafik poemasının mərkəzində mən insanı görürəm. Fəal həyat mövqeyi olan, özünəxas düşüncəsi olan, bəlkə də, bir çox hallarda özünə qapılan, tənhalığına çəkilən, üstəlik yumorlu düşüncəsi ilə həyatsevər bir insanı görürəm. Nə etmək olar, bu, həyatdır, hərəyə bir cür tale qismət edir. Əsas odur ki, R.Musa şəxsiyyəti tərənnüm edir, o, istəyir ki, insanlar xırda hisslərin, cılız düşüncənin qurbanı olmasınlar. O kimi (özünü) necə görürsə, eləcə də təsvir edir: *"İllərin düyünündə Sevinc gördüm, dərd gördüm. Yaltaq kəsləri namərd, Kişiləri mərd gördüm. Əvvəli sevgi dolu, Ömrün sonu göz yaşı. Dünya əzəldən belə: "Ölüm-ölüm" savaşı. Xalqa sipər olanlar Hər bir zaman anılır. Onlar unudulmayır, Kişi kimi tanınır. Yazdığım şeirlərdə. Buludlar ağlamasa, Sellər-sular axarmı? Bir əl bir ələ möhtac, Tək əldən səs çıxarmı? Vaxtı boşa verməyək, Hər işin öz vaxtı var. Deyim var el bir olsa, Zərbi, kəran sındırar. Dostlar, sizə güvəndim, Sizsiz günəşim, ayım. Siz, ey məni sevənlər, Sevgililərlə yaşayın Yazdığım şeirlərdə. Sizlərə dost demişəm, Dilinizdə var adım. Siz mənim güman yerim, Mənim qolum- qanadım. Əlləriniz olmayıb Kiminsə günahında. Tanrı sizə yar olsun. Saxlasın panahında. Xalqa bağlı olanlar, Özünü edər sipər. Hər vaxt tapıb özünü Haqqına güvənənlər Yazdığım şeirlərdə. Mənə ürək verənlər Qəlbimin sirdaşıdı. Sınaqlardan çıxanlar Mənim yol yoldaşımdı. Dostlar, yolumda ugur, Bağbağçamda barsınız. Siz öz varlığınızla Nə yaxşı ki, varsınız. Sizlərə ürəyimin Deyiləsi sözü var. Səsiylə-nəfəsiylə Hər bir kəsin özü var Yazdığım şeirlərdə"*. Hər fikrin, hər mətləbin axırında R.Musa yazdığı şeirləri yada salır. Yəni bir növ təkcə öz taleyini yox, yaşadığı dövrün, mühitin də taleyini xatırladır. Axı onun yazdıqlarında dövrün taleyi əsas obrazdır - zamanın özü canlı obrazdır.

R.Musa poemadan misal gətirdiyimiz misralarda insan təbiətilə bağlı bir çox məqamlara da işıq salır. İnsanların sədaqətini, təbiət etibarilə düşüncə mükəmməlliklərini, bir sözlə, sağlam təfəkkür tərzini xüsusi idealizə edir. Bu da onu göstərir ki, əslinə qalsa, müəllif təkcə öz taleyini yaşamır. Cəmiyyətin daşıdığı ağrılarla birgə cəmiyyətin özünü varlığına çəkir və sanki cəmiyyətin özü kimi yaşayır.

Biz R.Musanın sənətkar təbiətini tanımaya da bilərdik. Amma "Kredo" qəzeti onu bizə cəmiyyət üçün, insanlar üçün ağrılar çəkən bir müəllif kimi tanıdır. Əlbəttə, bu, bizi ona görə sevindirir ki, dövrümüzdə mövcud olmuş, yaşamış, ən başlıcası, bütün varlığını sözə vermiş bir qələm adamını, söz adamını, cəmiyyət üçün canı yanan şairi zamanımızdan sükutla keçmişə yola salmırıq. Onu görürük, onu duyuruq.



Maraqlıdır ki, o, bir insan olaraq mənəvi ucalıqda olanları yaxşı görür, dəyərincə qiymətləndirə bilir, kimliklərinə işıq salır. Doğrudur, konkret olaraq ad çəkmir. Ortalıqda onun əsas obrazı başqalarını da özündə ehtiva edir. Bəlkə də, bu misraları yazdıqda başqalarını da özündə görür, ruhunda duyur, varlığında hifz edir. Yoxsa, özündən cismən kənarda olanlara heç özünün dayandığı mənəvi ucalıqda dəyər verə bilməzdi. Elə şairliyin, sənətkarlığın əsas şərti odur ki, qalxa bildiyin ucalıqda görə bildiyin nə varsa, onu sözə gətirə biləsən: *"Sizə qibtə edənlər Sizlə öyünəsidir. Sizin varlığınızla Qəlbim döyünəsidir. Hər işdə, hər əməldə Olmuşunuz siz örnək. Sizi unutmaq olmaz, Arada var duz-çörək. "Dost dostuna tən gərək", Belə deyib babalar, Mən fərqinə varmadım, Hər kəsin öz yeri var Yazdığım şeirlərdə. Şairin nəyi varsa, Sizinlə bölüşübdü. Heç fərqinə varmadım Kimsəyə nə düşübdü. Sizdən söhbət düşəndə Söz demədim boşuna. İstədim ki, yaxşı söz Zirvələr də yaşana. Amalınız tər-təmiz, Örnəksiniz hər işdə. Sizin də töhfəniz var Uğurda, yüksəlişdə. Bağ-bağçada bgül-çiçək, Zirvələrdə garsınız. Var olun, əzizlərim. Nə yaxşı ki, varsınız Yazdığım şeirlərdə. Nə olsun, ötüb-keçib, İllər bizə əzizdi. Dostluğumuz bir ada, Xatirələr dənizdi. Dünyadan var ummaram, Dostlar dövlət-varımdı. Ürəyimə ən yaxın Tələbə dostlarımdı. Dostlarım harda varsa, Mən də o yerdə varam. Dostlarımı tapmışam, Özümü axtarıram,Yazdığım şeirlərdə!"* Doğru deyir müəllif. Dostları harda varsa, özünü də ordu görüb. Bu, insanlığa sədaqətdir. Ən başlıcası, insanlara sevgidir, cəmiyyətə məhəbbətdir.

Rafiq Musa "Kredo" qəzetində dərc olunan əsərlərilə - lirik poetik lövhələri, poemaları ilə bu gün də bütün gücü ilə yazıb-yaratmaqda olan sənətkar kimi görünür. Bu, sadə görüntü deyil. Ömrünü yaradıcılığa həsr etmiş insanın sənət taleyidir.

Yaz, yarat, qardaşım!

***26.05.2025***